# "TARİXİ ŞƏXSİYYƏTLƏR"

## PATRİARX KİRİLDƏN YAZDI






**Bu günlərdə növbəti sayı işıq üzü görən "Tarixi şəxsiyyətlər" jurnalı özünün növbəti sayının ənənəsinə sadiq qalaraq Moskvanın və bütün Rusiyanın patriarxı Kirilə həsr edibdi. Təbii ki, jurnal rus dilində həsr olunub və jurnalın baş redaktor Xəlil Qarəhmədov jurnalın bu sayının daha da maraqlı alınması üçün Bakı və Azərbaycan eparxiyasının arxiyepiskopu Aleksandr ataya müraciət edib. Məhz onun elmi məsləhətçisi olduğu jurnalın bu sayı sözün həqiqi mənasında çox zəngin materiallarla və nəfis şəkildə işıq üzü görübdü.**

Təkcə jurnalda yer almış fotoşəkillərə, yəni Moskva və Rusiya patriarxının Bakı səfərləri ilə bağlı çəkilmiş fotoları gözdən keçirmək bu jurnalın nə qədər zəngin olduğunu təsdiq etmiş olar. Elə redaksiya heyətinin da vurğuladığı kimi, jurnalın bu sayı rus-pravaslav kilsəsinin patriarxı əlahəzrət Kirill cənablarının Azərbaycana səfəri münasibətilə çap olunub. Jurnalın nəşrinə maddi və mənəvi dəstəyi bakı eparxiyasının üzvləri və onun üzvləri arxiyepiskop Aleksandr cənabları veribdi.

Jurnal məhz Aleksandr atanın jurnalın oxucularına müraciətilə başlayır və burada Azərbaycandakı multikultiar dəyərlər önə çəkilir. Ulu Öndərin, eləcə də Azərbaycan prezident İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rus provoslav kilsəsinə, din xadimlərinə olan diqqət və qayğısı jurnalda öz əksini tapıbdı. Jurnalı gözdən keçirdikcə Kirill atanın Rusiya prezidentilə, həmçinin Qafqaz Müsəlmanlarının dini rəhbəri Şeyxülislam Allahşükür Paşazadəylə, eləcə də digər maraqlı məqamlarla tanış ola bilərlər. Bir oxucu olaraq düşünürəm ki, çox mükəmməl şəkildə bizlərə təqdim olumuş bu jurnal həm provoslav dini ilə tanışlıq, həm də Rusiya-Azərbaycan münasibətləri ilə ilgil məlumatların əldə edilməsində yaxşı bir vəsaitdi.

**Əbülfət MƏDƏTOĞLU**